ədalət.-2017.-8 iyun.-S.4.

# 2017-Cİ İL AZƏRBAYCANDA "İSLAM HƏMRƏYLİYİ İLİ" ELAN EDİLMİŞDİR

**"IV İslam Həmrəyliyi Oyunları tək idman tədbiri deyil, həm də, Azərbaycanın bu gün islama tapınanlar haqqında geridə qalmış sivilizasiya kimi rəy formalaşdırıb islamofobiyaya rəvac verənlərə, İslamı dünyaya təhlükə kimi qələmə verib terrorizmlə eyniləşdirənlərə cavabıdır. Avropa İttifaqına üzv ölkələrin rəhbərləri "Stop İslam" deyib, müsəlmanları yox miqrantları qəbul etməyə hazır olduqlarını bildirəndə, xalqları dini mənsubiyyətinə görə bölməyin faşizmin təzahürü olduğunu, faşizmin isə İslam aləmində yox, Avropada yarandığını unutmasınlar".**

***İlham Əliyev***

1991-ci ildə, qloballaşdırma şəraitində müstəqilliyini bərpa etmiş Azərbaycan bu gün sosial-iqtisadi cəhətdən sürətlə inkişaf edən, yerləşdiyi regionda söz sahibi olan güclü dövlətə çevrilmişdir. Aparılan islahatlar və quruculuq işləri, uğurlu daxili və xarici siyasət nəticəsində ölkənin beynəlxalq nüfuzu getdikcə yüksəlir, Avropa ilə əməkdaşlıq sahəsində ciddi addımlar atılır.

SSRİ-nin süqutundan və ikiqütblü sistemin sosialist qanadının dağılmasından sonra daha da sürətlənən qloballaşdırma prosesi ölkələrdən vahid iqtisadi sisteme qoşulub iqtisadiyyatlarını liberallaşdırmağı tələb edir; beynəlxalq təşkilat və institutların (BMT, Avropa Şurası, BVF, Dünya Bankı, Dünya Ticarət Təşkilatı, Human Rights Watch, Amnesty International, Transparency International və s.), transmilli korporasiya və maliyyə qurumlarının funksiyalarını artırmaqla dövlətin ölkə iqtisadiyyatına təsir imkanlarını məhdudlaşdırır; dünyanı informasiya, məhsul və xidmətlərin, kapital, ideya və onların daşıyıcılarının daim hərəkətdə olduğu vahid məkana çevirir; xidmət, istehsal və ticarət sektorları dünya çapında sərbəst hərəkət etmək imkanı qazanır. Mövcud baryerləri aşmağa istiqamətləndirilən milli-mədəni dəyərlərin vahid lokal normalara uyğunlaşdırılması prosesi gedir. İnformasiya texnologiyasının inkişafı, eləcə də gündən-günə genişlənən internet şəbəkəsi elmi-texniki tərəqqini sürətləndirməklə yanaşı, həm də, beynəlxalq qurumlara istənilən dövlətdə mövcud sosial problemləri qabardıb əhali ilə hakimiyyəti üz-üzə qoymaq, informasiya kanallarının köməyilə sabitliyi pozmaq imkanı verir. Təhsil, bank sistemi, səhiyyə və s. sahələrdə vahid yanaşmanın ortaya qoyulması beynəlxalq təşkilatların strateji sahələrə təsir imkanlarını genişləndirir, bu da, iqtidardan ölkədaxili siyasi-ideoloji durum, istehsal və maliyyə qaynaqlarına nəzarət kimi məsələləri beynəlxalq normalar çərçivəsində həll etməyi tələb edir. Dövlət daxilində strateji sahələrə nəzarət rıçaqlarının zəifl ədilməsi güclü dövlətlərə, bəzən bu və ya digər ölkədə vəziyyətdən öz geosiyasi rəqiblərinin zəifl ədilməsi və ya məhv edilməsi məqsədilə də istifadə etmək imkanı verir. 2011-ci ildən bəri ərəb dünyasında baş verənlər və 2016-cı ilin axırında Türkiyədə qarşısı alınmış dövlət çevrilişi, əslində Qərbin ikili standartlar siyasətinin nəticəsi, dünya hegemonluğuna istiqamətlənən qloballaşma planının tərkib hissəsi idi.

Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) rəhbəri Aleksandr Bortnikov Moskvada keçirilən MDB ölkələri təhlükəsizlik orqanları rəhbərlərinin görüşündə "İŞİD" terror təşkilatının 40 faizinin xarici muzdlulardan ibarət olduğunu, 10 qruplaşmanın Rusiya, Gürcüstan, Ukrayna və Mərkəzi Asiya ölkələrinin vətəndaşlarından təşkil edildiyini deyib. Ümumilikdə "İŞİD" və "Əl-Nusra"nın tərkibində 100-dən çox ölkədən olan terrorçuların döyüşdüyünü deyən FTX rəhbəri terror təşkilatının sıralarına yeni qəbul olunanların Suriya, İraq və həmsərhəd dövlətlərin ərazisində təlim keçdiyini, Afrika, Avropa və Cənub-Şərqi Asiya ölkələrində olan regional terror təşkilatları rəhbərlərinin də "İŞİD"-ə sədaqət andı içdiklərini qeyd edib. Dünya və regional güc mərkəzlərinin öz maraqlarını "terror taranı"nın köməyi ilə reallaşdırmaq istədiklərini, bu səbəbdən də "İŞİD"-i gücləndirib ikili standartlar siyasəti yürütdüklərini deyib. Məhz, ikili standartlar siyasəti bu gün dünyanı, dağıdıcı qlobal münaqişələrlə üz-üzə qoyub. Təbliğat maşınını işə salmaqla Bəhreyn və Qətərdə sünni və şiələri, Səudiyyə Ərəbistanında müxtəlif tayfa və dini təriqətləri, Türkiyədə sünni və ələviləri bir-birinə qarşı çıxış etməyə təhrik edənlər Yaxın və Orta Şərqin demək olar ki, bütün ölkələrində mövcud olan dini təriqətçiliyi qızışdırmaqla məsələni siyasiləşdirməyə, Suriyada kürd faktorundan istifadə edib baş verən hadisələrə dini rəng verməklə vəziyyəti gərginləşdirməyə çalışırlar. İrandan söhbət gedəndə sünni təhlükəsini, Qətər, Bəhreyn və Səudiyyə Ərəbistanından danışanda şiə təhdidini önə çəkirlər. Böyük dövlətlərin hər birinin bölgədə müttəfiq hesab etdiyi dövləti haqlı çıxarmaq cəhdi real mənzərəni daha da mürəkkəbləşdirib dağıdıcı prosesləri sürətləndirir. Gerçək olanı isə odur ki, bütövlükdə regionun daha kiçik ölkələrə parçalanmasına yönələn proses gedir, Yaxın və Orta Şərq geosiyasi məkan olaraq yenidən qurulur. Regiondakı qarışıqlıqdan yararlanıb narkotik vasitələrin qanunsuz ticarətindən varlanan beynəlxalq terror təşkilatları getdikcə daha da güclənir. Bütün bunlar, "ərəb baharı"nı idarə etməyin təhlükəli olduğunu, getdikcə intensivləşən bu prosesin dayandırılması üçün, region dövlətləri rəhbərlərinin də əsas oyunçularla dialoqa girib bu məsələnin həlli variantlarını müzakirə etməsinin vacibliyini təsdiqləyir.

"Taliban" üzvlərinin bir çoxunun "İŞİD"-ə qoşulub onun bayrağı altında döyüşməsi, Əfqanıstanın şimal sərhədlərində "İŞİD"-in çoxsaylı dəstələrinin cəmləşməsi və Qərbdə bəzi dairələrin onlarla əməkdaşlıqda maraqlı olması, terrorçuların Mərkəzi Asiya ölkələrinə soxulması təhlükəsini artırır. MDB ölkələrindən qaynar nöqtələrə gedən gənclərin geriyə qayıtması bu ölkələrin təhlükəsizliyinə ciddi təhlükə yaradır. Döyüş əməliyyatları aparıb partlayıcı qurğularla işləmə təcrübəsinə yiyələnən döyüşçünün geri qayıtdıqdan sonra diversiya aktı törətməsi ehtimalı böyükdür. Hal-hazırda MDB ölkələri arasında terrorçular və onların planları ilə bağlı informasiya mübadiləsi aparılır, MDB vətəndaşlarından ibarət "İŞİD" qruplaşmalarının zərərsizləşdirilməsi və terrorçuların MDB sərhədlərini keçməsinin qarşısının alınması üçün əməliyyatlar həyata keçirilir. Terrorizm ideologiyasının MDB daxilinə keçməsinin qarşısının alınması, "İŞİD"in maliyyə mənbələrinin məhv edilməsi və yeni üzvlərin "verbovka"sına imkan verilməməsi istiqamətində iş aparılır. Müasir təbliğat vasitələrindən istifadə edən "İŞİD"-in əsas hədəfi rejimlərin əbədi, mövcud sabitliyin dayanıqlı olmadığını düşünən aktiv sosial təbəqə və gənclərdir. Bu təbəqə nüfuzlu ekspert və ilahiyyatçıların köməyilə maariflən dirilməli, onlarla müntəzəm iş aparılmalıdır.




"Ərəb baharı" OPEK-in neftin qiyməti ilə etdiyi manipulyasiyaları dayandırmalı idi. Bu "bahar" ABŞ-a hadisələrə silahlı müdaxilə etmədən geosiyasi maraqlarını təmin etmək, İraq əməliyyatından sonra ərəb şeyxləri arasında itmiş nüfuzunu qaytarmaq, və enerji qaynaqlarına nəzarəti bərpa etmək imkanı verirdi. "Ərəb baharı" həm də, Qərb-Rusiya-Çin geosiyasi xəttində gedən mübarizənin növbəti mərhələsi, İslam dünyasının demoqrafiya və sosial-iqtisadi sahələrdə sürətli inkişafına verilən reaksiya, bu prosesi nəzarət altına alıb müsəlmanlara Qərbə uyğun inkişaf modeli "təklif etmək" cəhdi idi. Başlanğıcda müdafiə mövqeyi tutmağa məcbur qalıb İran və Çinlə əməkdaşlığa gedən Rusiyanın Suriyanı aktiv müdafiə etmək cəhdləri də, əslində onun qlobal səviyyəli geosiyasi proseslərin ssenarisində yer almaması ilə bağlı idi. Proseslərin istiqamətini dəyişmək iqtidarında olmayan İran əsasən öz təhlükəsizliyinin qayğısına qalır, Çinə isə coğrafi mövqeyi və ABŞ-ın Sakit okean istiqamətində ona yaratdığı problemlər proseslərin gedişinə ciddi müdaxilə etmək imkanı vermirdi. Bu səbəbdən də, rəsmi Pekin, əsasən BMT TŞ-dəki mövqeyindən istifadə etməklə kifayətlənməli olur. Bu gün Yaxın və Orta Şərqdə olan vəziyyət və hadisələrin inkişafı hələ ki, Çinin sürətli inkişafından narahat olan əsas oyunçuları qane edir. Bu səbəbdən də, onlar Yaxın və Orta Şərqdə xaotik prosesləri izləməklə kifayətlənib əsas diqqətlərini Çinə yönəltməyə çalışırlar. Bu planları regionda reallaşdıra biləcək yerli dövlətlər isə, Qətər və Səudiyyə Ərəbistanıdır. Bu dövlətlərin də, Qərbin qurduğu oyunlara gedib proseslərin əsl mahiyyətinə kölgə salmağa yardım etməsi regionda vəziyyəti daha da mürəkkəb-ləşdirib əlavə problemlər yarada bilər. Onsuz da, dini təriqət üzrə parçalanma, yerli tayfalar arasında düşmənçiliyin qızışdırılması ilə uzun sürəcək qarşıdurmaların, köklü dəyişikliklərin əsası qoyulub. Bütün bunların arxasında isə, Yaxın və Orta Şərqi bir neçə cəbhəyə ayıran xüsusi məqsəd dayanır. Bunu, Respublikaçılar Partiyasının qurultayında ABŞ prezidenti Donald Tramp da qeyd edib: "Hillari Klinton dövlət katibi təyin olunanda İŞİD deyilən bir şey yox idi. Məhz onun idarəçilik dövründə terror təşkilatları bütün dünyaya yayıldı. Klintonun irəli sürdüyü rejimlərin devrilməsi siyasətindən əl çəkməli, İŞİD-i məhv etməliyik. Onun və Obamanın ucbatından Yaxın Şərqdəki siyasətimiz Liviya, İraq, Suriya və Misirdə özünü doğrultmayıb iflasa uğradı". Gündən-günə daha da intensivləşən bu prosesi dayandırmaq asan olmasa da, dünya və region dövlətləri toparlanıb səylərini birləşdirməli, iflasa uğramış bu prosesin mənfi təsirlərini aradan qaldırmağa çalışmalıdırlar.

Ərəb inqilabları öz təsirini yalnız qeyri-demokratik ölkələrə yox, bütün dünyaya göstərdi, ABŞ və Avropa Birliyini qeyri-demokratik rəqibləri ilə müqayisədə daha üstün mövqeyə çıxardı. Yaxın Şərq ölkələri ilə yanaşı, Qərb ölkələri də öz dəyərlərinə yenidən baxmalı oldular. Xalqı talayıb milyardları Avropa banklarına yatıranlar anladılar ki, bu pullar Qərbdə onu ələ keçirmək həvəsinə düşən dairələri qıcıqlandırmaqla yalnız onların fiziki məhvinə səbəb olmayacaq, həm də ölkələrinin dağılmasına aparıb çıxaracaq. Bir daha sübut olundu ki, demokratikləşməyə alter-nativ yoxdur: dünya liderliyi yalnız UDM-in həcmi və artım tempi ilə və ya neft, qaz ixracı ilə müəyyənləşə, dövlətlərarası münasibətlərdə əsas arqument güc, əsas prinsip maraq ola bilməz.

Beynəlxalq münasibətlərdə ilk dəfə 1918-ci ildə sabiq ABŞ prezidenti Vudro Vilson tərəfindən təklif edilən "Gücün, prinsip və maraqların deyil, hüququn üzərində bərqərar olan dünya düzəni"nə alternativ olmadığı təsdiq olundu. Ərəb baharı beynəlxalq münasibətlərin tənzimlənməsində azadlıq, demokratiya, insan haqları kimi dəyərlərin önə çıxmasını şərtləndirdi. Liviyada dinc əhalini öz diktatorundan qorumaq üçün bir ilkə imza atıldı. BMT TŞ-nın qəbul etdiyi qətnamə əsasında başlanan hərbi əməliyyatlar yeni dünya düzənin olacağından xəbər verdi. Elə bir düzən ki, orada insan haqları beynəlxalq münasibətlərin əsas prinsipinə çevrilir və dinc insanların kütləvi şəkildə öz hökumətləri tərəfindən qırılması beynəlxalq müdaxiləyə səbəb olur.

Ərəb baharı ABŞ-ın xarici siyasətində ciddi dönüş oldu: heç kimlə hesablaşmadan verilən qərarların beynəlxalq ictimai rəyi ABŞ-a qarşı qaldırıb onu zəiflətdiyi sübut olundu. ABŞ liderləri superdövlət olmanın verdiyi üstünlüklərdən sui-istifadə etməkdənsə, liderlik etməyə önəm verməyə başladılar. Bütün qərarların Avropa Birliyi, hətta Ərəb Liqası və digər beynəlxalq və regional qurumlarla məsləhətləşməklə verilməsi ABŞ-a qarşı yönələn dünya ağalığı ittihamını aradan qaldırdı. BMT yenidən dünya əhəmiyyətli qərarların verildiyi ünvan kimi özünü təsdiqlədi.

**Ərəb inqilablarına münasibətdə ABŞ və AB-nin çox vaxt birlikdə, sinxron hərəkət etməsi AB-in beynəlxalq münasibətlərdə yeni keyfiyyət dəyişikliyini ortaya qoyub özünü beynəlxalq aləmə yeni statusda təqdim etməsinə şərait yaratdı. Çox böyük iqtisadi, hərbi gücə, böyük insan resurslarına malik AB üzvlərinin, xarici siyasət məsələlərində vahid mövqedən çıxış etməsi, ittifaqın özünə inamını artırdı. Bu iki böyük gücün birlikdə və demokratiyadan yana olması avtoritar rejimlərin manevr imkanlarını da məhdudlaşdırır. Strateji planda onlara heç bir şans vermir.**

**(ardı var)**

**İradə Ələsgərova,**
**Əməkdar mədəniyyət işçisi,**
**tarix üzrə fəlsəfə doktoru**